Xəyalə Sevil



# Üzü sənə dayanmışam, İlahi...

Üzü sənə dayanmışam, İlahi,
əllərini ver tutum...
Bu təklik də ürəyimdə
adam kimi yer tutur.
Mən hər gecə yastığıma
dağıtdığım
fikrim, qayğım nə varsa
gözlərimə toplayıram.
Baxışlarım çaparsa,
Tanrı duyar,

# "Pəncərəndə qanı qaralan gecə..."

Tanrı alar məktubumu...
Yanağıma dalğa dəyir...
İçim dəniz...
Yıxılmışam, İlahi!
Elə bilmə
mən dincimi alıram...
Ən uzaq, ən gözəl xatirələrdən
sevincimi alıram.

# İntihardı bu ayrılıq

Bir göz sıxım gedişinə,
bir söz düşsün dodağımdan,
şeir olsun.
Yenə yadıma düşmüsən
gecə vaxtı.
Aman Allah, xeyir olsun!

Vaxtına çəkir həsrətin...
O gün də şər qarışanda
gördüm, Tanrı əllərimi
üstümə tullayıb gedir.
İçimdəki quyunun
dibindən gəlirdi səs:
Unut! Unut!
Üçüncüdə-
Sözünü ağzında qoydum,
başını üzdüm ümidsizliyimin,
bıçağı boğazında qoydum.
İntihardı bu ayrılıq,
intihardı - biləyəcən!
Axı biz danışmışdıq sənlə,
danışmışdıq: Çəliyəcən!

***

Sən bilmə!
Mən sənin şəkillərini
asdım gözlərimin yol tərəfinə.
...etiraf məktubu yazıb tulladım
bu gün bədənimin sol tərəfinə.

...bağla, açma qapını,
inanma nağıllara.
Həsrətini sulamağa
gözümdə yaş gətirmişəm.
Mən soyuq qadınam,
axı bilirsən.
Sənə də qış gətirmişəm...

Qayıt!
Əllərimdən, üzümdən qayıt!
...unutmaq,
çətini dönənəcəndi.
Hər nə yaşadıqsa sənlə
bitti!
Dünənəcəndi...

***

Hər şey yerindədi -
o yol, o küçə.
Küçənin başında açıq pəncərən,
pəncərəndə qanı qaralan gecə.
Hər şey yerindədi,
bircə sən yoxsan...

Sənsiz üstü-başı
yaş həsrətimi
gözümə sərmişəm,
qurusun bir az.
Yeni ayaq açan səadətimin
əlindən tutmadın
yerisin bir az.

Tək qoydun,
sən də tək qoydun!
Ömrü zəngli saat kimi
qurdun,
sənədək qoydun.
Demirəm ki, sevmədin,
sevdin, düşəndə yada...
Mənə də çətindi, amma
əlvida!